İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 MAY 2021-Cİ İL №010 (133)

Səh. 2 AĞRI VİZASI- İBRAHİMXƏLİL YAZIR

Səh. 3 KEÇMİŞİNİ UNUDANIN GƏLƏCƏYİ OLMAZ - HACI BƏKİROĞLU YAZIR

Səh. 5 DAXİLİ İLƏ VAR OLMAĞI BAŞARAN QALİBDİR - LAMİYƏ HACIYEVA YAZIR

Səh. 5 MƏN ATAMLA FƏXR EDİRƏM- AYHAN HƏSƏNOV YAZIR

Səh. 6 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

Səh. 7 OXUYUB ALİMMİ OLACAQ?!- DİLARƏ TƏHMƏZOVA YAZIR

Səh. 7 BİLGİ İŞIQDIR- AYSEL MAHMUDQIZI YAZIR

## 26 MAY – GÜRCÜSTANIN MÜSTƏQİLLİK GÜNÜDÜR

Mayın 26-sı Gürcüstanda Müstəqillik Günü qeyd olunub. 1918-ci ilin mayın 26-da Gürcüstanın Milli Şurası dövlət müstəqilliyi aktını qəbul edib.

Noe Jordanianın başçılıq etdiyi ilk demokratik respublika iki il yarım mövcud olub. Gürcüstan dövlət müstəqilliyini 1991-ci ilin aprelin 9-da bərpa edib.

Bu il milli bayrama həsr olunan rəsmi mərasim pandemiya səbəbindən məhdud sayda iştirakçı sayı ilə Tbilisinin Azadlıq meydanında keçirilib.

Mərasim çərçivəsində Gürcüstanın hərbi texnikasının bir hissəsi nümayiş etdirilib, hərbi xidmətə çağırılan çağırışçıların təntənəli andiçmə mərasimi baş tutub.



Həmçinin Fransada mühacirətdə vəfat edən Gürcüstan Demokratik Respublikası ordusunun baş komandanı, görkəmli general Giorgi Kvinitadzenin Tbilisiyə gətirilən cənazəsinin qalıqları şəhərin Mtatsminda panteonunda dəfn olunub.

## GÜRCÜSTANDA KORONAVİRUSA YOLUXANLARIN SAYI 343 963 NƏFƏRƏ ÇATIB



Mayın 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusa yoluxanların sayı 343 963 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusdan ölənlərin ümumi sayı 4 773 nəfər, sağalanların sayı isə 327 618 nəfər olaraq göstərilib.

Ölkə üzrə karantin rejimində 44 nəfər, stasionar nəzarətdə 3 829 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı isə 658 nəfə olaraq göstərilib. 138 914 nəfər peyvənd olunub.

Qeyd edək ki, Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin məlumatına əsasən, Gürcüstanda koronavirusun Hindistan ştammına yoluxma halları təsdiqlənib.

Təhlükəli növün aşkarlandığı 5 şəxs Gürcüstana müxtəlif tarixlərdə daxil olublar.

## GÜRCÜSTANA QURU YOLLA DAXİL OLAN ŞƏXSLƏRDƏN PCR TESTİNİN NƏTİCƏLƏRİ TƏLƏB OLUNACAQ

Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidzenin sözlərinə görə, “Gürcüstana quru yol vasitəsilə daxil olacaq şəxslərdən son 72 saat ərzində aparılan PCR testinin mənfi nəticəsini təsdiqləyən arayış mütləq tələb olunacaq”.

O bildirib ki, koronavirus əleyhinə vaksinin hər iki dozasını vurduran şəxslər də həmin arayışı təqdim etməli olacaqlar və arayışsız quru sərhədlərdən Gürcüstan ərazisinə daxil olmağa icazə verilməyəcək.

Mərkəz rəhbəri qeyd edib ki, quru sərhədlərin açılması ilə Gürcüstana gələn ziyarətçilərin sayı artacaq və bu da yoluxma hallarının artmasına səbəb ola bilər.

“Buna görə də biz çox ehtiyatlı olmalıyıq. Ölkəyə səfər edəcək şəxslərə vaxtaşırı tibbi




müayinədən keçmək də tövsiyə ediləcək”, - deyə baş epidemioloq bildirib.

Qeyd edək ki, Gürcüstan iyunun 1-dən quru sərhədlərini açır. Ölkəyə quru yolla PCR testinin neqativ nəticəsi ilə daxil olan şəxslər üç gün ərzində öz hesablarına təkrar test verməli olacaqlar.

## İQTİSADİYYAT NAZİRİNƏ TURİZM ÜZRƏ MÜAVİN TƏYİN OLUNUB

Mariam Kvrivişvili Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin müavini təyin olunub. O, turizm, aviasiya və kurortların inkişafı istiqaməti üzrə fəaliyyət göstərəcək.

Təyinatdan öncə 31 yaşlı Mariam Kvrivişvili Gürcüstan parlamentinin üzvü olub. O, 2019-2020-ci illərdə Gürcüstanın Milli Turizm Administrasiyasının rəhbəri vəzifəsində çalışıb.

# AĞRI VİZASI



Bəzən insan başdan-başa ağrı olduğu üçün ondan heç "Haranız ağrıyır?" – deyə bir soruşan da olmur. Çox zaman da ağrı – əlbəttə, söhbət fiziki ağrıdan artıq mənəvi ağrıdan gedir – kimsənin görə bilmədiyi yerdə olur. Belə müsibət ağrıları görə bilmək üçün də gərək öncə insanın qəlbini görə biləsən, ürəyini oxumaq istedadın ola. Üstəlik də, nə qədər istəyirsən de, gül, çal, çağır, bütün hallarda mənəvi iztirabları gizləmək çətin olur. Yoxsa mövzunun canı elə duyğu sinirlərinin qıcıqlanması nəticəsində bədənin hər hansı bir yerində hiss edilən ağrı olsaydı, dərd yarı sayılmazdımı?

Beləliklə, bir daha orada ayla, illə, burada müxtəsər dillə…

Bir zamanlar Ağrıdağı görmək istəyim elə böyük idi ki, duyğu sinirlərimi heç cürə cilovlaya bilmirdim. Amma onda qardaş Türkiyəni görə bilmək üçün *viza* lazım idi!

İndi Türkiyə səfərləri vizasızdır. Amma Ağrıdağı hələ də görməmişəm. Türkiyə Yazarlar Birliyindən bir nəfər qələm dostuma da dedim. Dedim ki, necə rəva görərsən, əfəndim!? Ağrıdağı görmədən dünyamı dəyişmək olar? Dedim ki, təsəvvür edirsənmi, rəhmətlik anam mənə hər dəfə "Ağrın-acın dağlara-daşlara!" – deyə yalvardıqca, ahəstə alxışlar verdikcə elə bilirdim bütün ağrılarım Ağrıdağa gedəcək. Səbirsizlənirdim. Etiraz edirdim: axı o, onsuz da Ağrıdağdır. Ziyadə ağrılardan vulkanları yenidən oyanmazmı?

Və biləndə ki, Ağrıdağı görmək üçün mütləq bir "Ağrı vizası" da lazımdır, Kərəm demiş, *onda gördüm bürəm-bürəm qar gəlir.* Əlbəttə, sərhədyanı bölgə olaraq "suverenlik səlahiyyəti çərçivəsində" hər şey gün kimi aydındır. Amma, canım-qardaşım, bu latın əsilli viza *(visus)* da elə *ziyarət* deməkdir axı! Öz *Ağrı*mı ziyarətim üçün nə viza!.. Nə rəsmi icazə sənədi? Mənə heç Ağrıdağı göstərmək üçün verilən rəsmi bələdçi də gərək deyil. Təvazödən uzaq olmasın: Ağrıdağda, o dağ sərində-dağlar başında hər şairin bir zərrə ağrısı qorunur axı! Şairin vizası nə Şengen vizasıdır, nə turist, nə müalicə vizasıdır, nə də işgüzar. Bu, ağrı vizasıdır, canım-qardaşım, ***Ağrı!***

Amma bu gün kimi aydın səmtdə simvollar dolu məqamlar dərk olunandır, məqbuldur:

…İlk Ağrıdağ sevgimdən, ilk məhəbbətimdən mənə nə qaldı? Çox şey! Məsələn, dağın türkcə "Ağrıdağ" adından dolayı, ivritcə, yunanca, farsca, ərəbcə, ingiliscə, ermənicə… necə adlanmalar arasında bir rus səyyahının dağa verdiyi "Sultan Ağrı" adını da çox sevdim. Çoooх! Sultan Ağrı! Təsəvvür edirsənmi?

Həm də o kontekstdə, o mənada ki, bütün xalqlara da, bütün dillərə və duyğulara da uca Allahın altında yer var!

Ağrıdağla bağlı şeirlər oxudum, dastanlar vərəqlədim; bəzilərini ruhumun dərin guşələrinə hopdurdum, ağrılarıma çilədim. Günlərin bir günü Tiflisin Vake tərəfində cazibəsindən unudulmaz Qalaktion Tabidzenin ilham pərisi hesab olunan Meri Eristaviyə bənzəyən xanım həkim səhhətimin belə sürətlə yaxşılığa doğru döndüyünü görüb təəccübünü gizlədə bilmədi: – Yəni səni belə tez bizmi qurtardıq? – deyə heyrətləndi.

– Siz və Ağrıdağ, – dedim.

Gözləri naməhrəmdən qorumaq öz ləyaqət və həya yerində, bu işarəni sizə açıqlayıram ki, Ağrıdağ sevgisinin ağrı aldığını da biləsiniz; başqa sözlə, kiməsə "Ağrın alım" deyəndə bunu minnətli eləməyin. Axı ağrı almaq üçün viza tələb olunmur. Belə ağrı coğrafi məkan deyil; sadəcə, duyğu sinirlərinin qıcıqlanmasıdır: ona görə!

…Ustad Aşıq Alı Ağrıdağı "dağların sərdarı" adlandırır və deyirdi:

*…Havalanıb ərş üzünə çıxıbsan.*
*Və:*
*…Tozun qalxdı İrəvanı bürüdü.*

Şeirin "şirin" nevrozunun tüğyan elədiyi vaxtlarım idi. Dua edirdim ki, Ağrıdağın tozu təki Tiflisi bürüməyə. "Min yol mənə söylər" romanının müəllifi, qələm dostum Etimad Başkeçid oxşar məqamlarda belə deyir: "Sənətkarın Şeyx Sənanlığı tutdu yenə".

…Bu bənd isə ustad Gürkaninin "Ağrıdağ"a ünvanladığı şeirin möhürbəndidir:

*Gürkani deer: görüşəlim,*
*Küskün isən barışalım.*
*Sənin ilə dərdləşəlim,*
*Varsa əyər sazın sənin.*

Əlbəttə, var! Məgər Ağrıdağ sazdan-sözdən, sarı simlərdən, sehrdən-tilsimdən yoğrulub yapılmadımı!

…Şəxsən tanıdığım İsmayıl Malatyanın sözlərini öz dilindən eşitmək nəsibim olub. Görünür, türk poeziyasında Ağrıdağsız motiv, motivasiya yoxdur:

*Türüm-türüm reyhan, kəklik qoxarsan,*
*Ayrılanı həsrətinlə yaxarsan.*

Ağrıdağın ayrılanı həsrətlə yaxmağı bir ayrı, bəs onu görməyi həsrət və ümidlə gözləyənləri yandırıb-yaxmağı necə olsun?

*P.S.*

Şair Məmməd İsmayıla ithaf elədiyim bir rübablı-liralı "Ağrıdağ" da mənim var; inşallah, sizinlə paylaşacağam. Axı dağlar da qocalır və nədənsə mənə belə gəlir ki, ustad Məmməd İsmayıl Ağrıdağ misilli qocalır.

Şairlərin ona qan qohumu olduqlarını Ağrıdağın özünə pıçıldayacağam. Qoy bir "Ağrı vizası"nı əldə edim…

Sağlıq olsun!

***İBRAHİMXƏLİL***

## VAHİD MİLLİ HƏRƏKAT PARTİYASI PARLAMENTƏ DAXİL OLMAĞA QƏRAR VERİB



Müxalif Vahid Milli Hərəkat Partiyası (VMHP) parlamentə daxil olmağa qərar verib. Bu barədə qərar partiyanın Siyasi Şurasının mayın 30-u keçirilən iclasında qəbul edilib.

VMHP sədri Nika Melia bildirib ki, partiya parlament seçkilərində əldə etdiyi mandatlardan istifadə etməyə qərar verib və bu, ən doğru qərardır.

Qeyd edək ki, müxalif partiya ötən ilin oktyabrında keçirilən parlament seçkilərinin nəticələrini tanımayaraq, qazandığı 30-dan çox deputat mandatından imtina etmişdi.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINA SƏDRİN SEÇİLMƏSİ QAYDASI DƏYİŞİR



Gürcüstanın Mərkəzi Seçki Komissiyasına (MSK) sədrin seçilməsi qaydasına dəyişiklik edilir. Yeni qayda ölkənin seçki sistemində islahatlara dair sənəddə əks olunub.

Qüvvədə olan qanuna əsasən, MSK sədrini komissiyanın üzvləri seçir. Sədrin seçilmədiyi təqdirdə proses qanunverici orqana ötürülür.

Dəyişikliklərə əsasən, MSK-ya sədr Gürcüstan prezidentinin təqdimatı əsasında və açıq müsabiqə yolu ilə seçiləcək. Sədrin səlahiyyət müddəti isə 5 il olacaq.

MSK üzvlərinin sayı sədr, onun iki müavini və bir katib olmaqla ən azı 17 nəfərədək artırılacaq. Bir sədr müavinini və katibi parlament, digər müavini isə müxalifət partiyaları seçəcək.

Sənəd tövsiyələr üçün Venesiya Komissiyasına göndərilib.

## TOYLARLA BAĞLI QADAĞA QÜVVƏDƏ SAXLANILIB



Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, Gürcüstanda toy və digər kütləvi ziyafətlərin keçirilməsinə qoyulan məhdudiyyətlər qüvvədə qalır. Digər qərarla iyunun 1-dən ölkə ərazisində kafe və restoranların şənbə-bazar günlərində açıq hava ilə yanaşı, qapalı məkanda da müştəri qəbul etmələrinə icazə verilib.

Qeyd edək ki, mayın 17-dən ölkədə tətbiq olunan komendant saatının müddəti qısaldılıb. Belə ki, hərəkət məhdudiyyəti saat 23:00-dan 05:00-dək qüvvədə olacaq.

## SEÇKİLƏRDƏ ELEKTRON SƏSVERMƏ TƏTBİQ OLUNACAQ

Gürcüstanda yerli idarəetmə orqanlarına seçkilərdə elektron sistemin tətbiqi planlaşdırılır. Bu yenilik ölkənin seçki sistemində islahatlarla bağlı sənəddə yer alıb.

Dəyişikliklərə əsasən, seçicilərin qeydiyyatı, səsvermə, səslərin sayılması və yekun protokolların tərtib olunması elektron qaydada həyata keçiriləcək.

Qanun layihəsində bildirilib ki, Mərkəzi Seçki Komissiyası bütün seçki məntəqələrində seçicilərin elektron qeydiyyatını təmin edəcək, həmçinin müəyyən seçki məntəqələrində bülletenləri elektron sayğacın köməyi ilə sayacaq.

Yeniliklərin ilk dəfə olaraq bu ilin payızında keçiriləcək yerli seçkilərdə tətbiqi gözlənilir.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏNİN BAŞ QƏRARGAH RƏİSLƏRİ ARASINDA GÖRÜŞ OLUB



Gürcüstanın Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Giorgi Matiaşvili NATO-nun Hərbi Komitəsinin toplantısı çərçivəsində türkiyəli həmkarı ordu generalı Yaşar Gülərlə görüşüb. Bu barədə Gürcüstanın Müdafiə Nazirliyindən bildirilib.

Alyansın Brüsseldəki mənzil qərargahında baş tutan görüşdə G.Matiaşvili Türkiyə tərəfinə Gürcüstanla sıx əməkdaşlığa və ölkənin Müdafiə Qüvvələrinin inkişafına onilliklər ərzində göstərilən dəstəyə görə minnətdarlığını ifadə edib.

Tərəflər bildiriblər ki, hərbi təlimlərdə birgə iştirak Gürcüstan və Türkiyə müdafiə qüvvələrinin döyüş hazırlığını əhəmiyyətli dərəcədə artırır və qarşılıqlı əlaqəni gücləndirir.

Baş Qərargah rəisləri əməkdaşlığın dərinləşdirilməsi perspektivləri ətrafında da fikir mübadiləsi aparıblar.

## QARDABANİ GƏNCLƏR MƏRKƏZİNDƏ MÜSTƏQİLLİK GÜNÜ QEYD OLUNUB



Mayın 27-si Qardabani Gənclər Mərkəzinin (QGM) ofisində 26 May Gürcüstanın Müstəqillik Günü və 28 May Azərbaycanın Respublika Günü qeyd olunub.

"Yeni Yol" xəbər verir ki, QGM-nin icraçı direktoru Hacı Bəkiroğlu qonaqları salamlayaraq müstəqillik günü münasibətilə hər iki ölkənin vətəndaşlarını təbrik edib: "1918-ci ildə elan olunan Gürcüstan Demokratik Respublikası və Azərbaycan Demokratik Cümhuriyyəti çox qısa bir ömür sürsə də bu azadlıq hər zaman iki ölkə xalqlarının qəlbində bir ümid işığı olmuşdur. Sovet İttafaqı içərisində yaşadıqları zaman bu xalqlar öz müstəqillikləri uğrunda çalışmış və nəhayət bu arzuya yetişmişdilər. Ozamankı liderlərə və hökumətə hörmət əlaməti olaraq bu günü tarixi bir dəyər kimi qorumuşdular. Bu dəyərləri bundan sonra qorumaq bizlərə də bir borcdur".

Sonra Azərbaycan Respublikasının Gürcüstandakı səfirinin müşaviri Sərxan İsmayılov çıxış edərək Gürcüstanla Azərbaycan arasındakı sıx dostluq əlaqələrindən və hər iki ölkənin bənzər taleyindən danışıb.

Daha sonra Gürcüstan Azərbaycanlılarının Ağsaqqallar Şurasının sədr müavini Mayak Nemətov, ziyalılardan Zabit Hüseynov, Muradxan Eminov və gənc siyasi şərhçi Aybəy İsayev çıxış ediblər.

Tədbirdə elm xadimləri ilə birlikdə ictimaiyyət nümayəndələri də iştirak ediblər.

## ABŞ GÜRCÜSTANA 67 MİLYON DOLLAR QRANT AYIRIB



Gürcüstan ABŞ-dan 67 milyon dollar həcmində qrant alıb. Bununla bağlı Gürcüstan hökuməti və ABŞ-ın USAID təşkilatı arasında saziş imzalanıb.

Sənədi Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili və USAID-nin missiya rəhbəri Piter Vibler imzalayıblar.

Mərasimdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və ABŞ-ın bu ölkədəki səfiri Kelli Deqnan iştirak ediblər.

"Gürcüstanın dayanıqlı inkişafının təşviqi üçün" adlı qrant proqramı çərçivəsində ayrılacaq vəsaitin 330 milyon dollara çatdırılması perspektivi var.

## KEÇMİŞİNİ UNUDANIN GƏLƏCƏYİ OLMAZ



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Bəşəriyyət yarandığı gündən bu yana tarixdə çox sayda qəbilələr, tayfalar, millətlər olmuşdur. Onlardan bəziləri tarixə qarışaraq yox olmuş, bəziləri də bu gün öz varlıqlarını davam etdirirlər. Bu gün varlığını davam etdirən millətlərin var olmasında dahi şəxsiyyətlərin rolu danılmazdır. Mənsubu olduğumuz Azərbaycan türkləri də qədim tarixə malikdir. Dünya ədəbiyyatına, eləcə də Şərq ədəbiyyatına nəzər saldıqda Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və incəsənətinin özünəməxsus zirvəni fəth etdiyinin şahidi oluruq. Azərbaycan ədəbiyyatında islami xüsusların ön plana çəkilməsi ona xüsusi bir gözəllik verir. İslami xüsusların ön plana çəkildiyi bu mədəniyyət və ədəbiyyat bir çox yazıçılar, şairlər, mütəfəkkirlər, alimlər, siyasətçilər və saya-hesaba gəlməyəcək dahi şəxsiyyətlər yetişdirmişdir. Bu uca şəxslər zaman-zaman digər insanlar içərisindən süzülərək ədəbiyyatımızı, mədəniyyətimizi və incəsənətimizi nurlu gələcəyə daşımışlar. Onların sayı o qədər çoxdur ki, bu qısa yazımızda hansını deyək, hansından danışaq?

Dünya ədəbiyyatının diqqətini özünə cəlb edən Nizami Gəncəvi, beytləriylə həqiqi eşqin məktəbini ucaldan Məhəmməd Füzuli, qısa bir zaman içərisində uzun ömür yaşayan Mikayıl Müşfiq, çəkinmədən həqiqətləri öz əsərlərində üzə çıxaran Cəlil Məmmədquluzadələrə sahib olan bir millətik. Bu və daha neçə-neçə belə dahi abidələrimiz var ki, onlar millətimizin heç zaman sönməyəcək ədəbiyyat, mədəniyyət ulduzlarıdır. Bu yaxınlarda oxuduğum bir jurnalda belə bir cümləyə rast gəldim: *"İnsanlar vardır şəfəq vaxtı doğular, axşam azanında ölərlər". Necə də doğru bir təsbitdir. İnsan bu dünyada bəşəriyyət üçün heç bir xeyir iş görmədən yüz il də yaşasa nə fayda? Şəfəqlə doğular, qürubla batıb gedər. Yaddaşlardan birdəfəlik silinərlər".* Ədəbiyyatımızın dahiləri isə yazdıqları əsərləri ilə qəlblərdə silinməyəcək izlər qoydular.

Məhz bu şəxslər anlayırdılar ki, onların adları millətimiz var olduqca yaşayacaq, hörmətlə anılacaq. Elə bu amalla da hər zaman xalqımıza həqiqətləri çatdırmaq, onları maarifləndirmək üçün canları bahasına belə olsa haqqı yazmaqdan heç zaman çəkinmədilər, qorxmadılar. Bəzən onlara vətən xaini, bəzən üsyankar damğası vurmağa çalışdılar. Lakin bu, onları heç zaman yollarından çəkindirmədi. Ancaq millətimiz "bir ölər, min dirilərik" üslubuna sadiq qalaraq bu dahilərin davamçıları olan Zəlimxan Yaqub, Bəxtiyar Vahabzadə, Məmməd Aslan, İsa İsmayılzadələri yetişdirdi.

İstər keçmişdə, istərsə də günümüzdə olan ədiblərimiz bizi dünyada tanıdan dəyərlərimizdir. Ancaq günümüzdəki gənclər nədənsə daha çox Qərbə tərəf yönəlirlər. Unutmamaq lazımdır ki, bizim kökümüz dərinlərdən gəlir.

Öz əcdadımızı, tariximizi unudub Qərbə qaçışın səbəbi nədir görəsən? Bizim baş tacımız olan dahiləri unudub, əsərlərini bəyənməzlikdən gələrək ingilisin Conlarına, fransızın Cimlərinə hörmət etmək bizim üçün utanc mənbəyidir. Mənim sözlərim yanlış anlaşılmasın. Demirəm ki, dünya ədəbiyyatı oxumayaq, izləməyək. Sözüm odur ki, biz öz tariximizi, mədəniyyətimizi, ədəbiyyatımızı unutmamalıyıq. Dünya ədəbiyyatı ilə birlikdə öz ədəbiyyatımızı da mənisəməli və qorumalıyıq. Dilimizin bugünkü varlığı onların sayəsində qorunmuşdur.

Keçmişini unudanın gələcəyi olmaz deyirlər. Ulularımızın saldığı yolla, açdığı cığırla getmək hər birimizin müqəddəs borcudur.

# MANANA RATİANİ: "MÜƏLLİMLƏR ÜÇÜN İRƏLİLƏMƏK ASAN OLMAYACAQ VƏ OLA BİLSİN, ƏVVƏLKİ SXEMƏ NİSBƏTƏN DAHA DA ÇƏTİN OLACAQ"



Audit Xidmətinin müəllimlərin kompetensiyasının və imtahanların aşağı nəticəsi ilə bağlı təqdim etdiyi tədqiqatı bu gün də müzakirə olunur. **Müəllimlərin imtahan nəticələri niyə pisləşib?** – Bu məsələ barədə Müəllimlər Evinin direktor müavini Manana Ratiani danışıb:

**"Nəticələr niyə pisləşib?** – Bu suala cavab vemrək üçün 2010-cu ildən bu günə qədər olan vəziyyəti nəzərdən keçirməliyik. 2010-cu ildə müəllimlər üçün fənn və ümumi qabiliyyət üzrə ilk sertifikat imtahanları başlayanda nəticə daha yüksək və keçid də 60 faiz idi. Sonra yavaş-yavaş müəllimlərin göstəriciləri azaldı. Çünki kim özünü ixtisaslı hesab edirdi birinci illərdə qorxmadı və imtahana girdi. Sonrakı illərdə isə artıq azalma görürük. Bu, təbii və gözlənilən idi.

Bizim mərkəz müəllimlərin peşə inkişafının qayğısına qalmalıdır. Ancaq universitet təhsilini təlimlə əvəz etmək təsəvvüredilməzdir. Eyni zamanda, müşahidə edirik, müəyyən edilmiş həddi keçə bilməyən müəllimlərin əvəzinə məktəbə kim girməlidir. Onları daha yaxşı kadrlarla əvəz edə biləcəyikmi.

**Sistemə kim daxil olur və haradan daxil olur?** – Açıq qapı siyasətimiz olanda kim işsiz idi və ərinmirdi hamısı müəllim oldu. Bu, əlbəttə, problemdir. Çünki müvafiq təhsilləri yox idi, ancaq müəllim olaraq kim gələcək və onların məktəb səviyyəsində, yaxud akademik dəstəyi necə olacaq, əhəmiyyətli olan budur.

8 600 müəllimdən kim imtahanı verə bilməyəcək onların yerinə vakansiya elan olunacaq və onları kim əvəz edəcək – ilk növbədə bu universitet kadrları olacaq. "Axtaran" proqramı bunu təmin edir. Bakalavr və maqistratura proqramlarından başqa 60 kreditlik proqram da mövcuddur. Gənclərə yol açılmalıdır və məktəbə girməlidirlər. Çünki 60 kreditlik imtahan veriblər, metodologiyanı da öyrəniblər və layiqli kadr olacaqlar.

Bu ildən müəllimlər üçün imtahana girmək məcburi olacaq. Bu, məktəbdə olan göstəriciləri dəyişəcək. 2010-cu ildən bu günə qədər öz ixtisasını təsdiqləməyənlərin yerinə vakansiya elan olunacaq və yeni müəllimlər üçün məktəbdə işləmək imkanı yaradılacaq. Təbii ki, onlara da dəstək lazımdır. Çünki sinfə daxil olursa onu prosesdə tək qoymaq olmaz. İkinci odur ki, məktəbdə kim olacaqsa hamının yaxşı ya pis, az ya çox dərəcədə ixtisası təsdiqlənəcək, hamının hansısa formada təsdiqlənmiş ixtisası olacaq və bu, artıq irəli atılmış addımdır.

Həmçinin, biz araşdırma apardıq, müəllimlərin ehtiyaclarını öyrəndik, onların fikirlərini nəzərə aldıq və yeni təlim modulları hazırladıq. Təlim modul müəllimin ehtiyacına cavab verirsə, deməli effektivdir, yoxsa ki, müəllim bir neçə illik akademik təhsilin verdiyi ixtisası təlimlə əldə edə bilməz.

Qeyd edilməlidir ki, 2015-ci ildə müəllimlərin 75 faizi təcrübəçi səviyyəsində idi. Bu il həmin göstərici 14 faizdir və onların bir qismi ixtisasını təsdiq edəcək, bir qismi isə məktəbi tərk edəcək.

Qiymətləndirmə prosesi kənara çıxdı. Müəllimlərin məktəbdə nə etdiyi onların peşə standartlarına görə qiymətləndiriləcək. Aşağı keçid olmasına baxmayaraq, müəllimlərin irəli addım atması asan olmayacaq və ola bilsin, əvvəlki sxemə nisbətən daha da çətinləşəcək.

Deyəndə ki, bu müəllim mentordur, yaxud aparıcıdır, sual yaranmamalıdır ki, onun şagirdləri məktəbdə necə oxuyurlar.

Bundan əlavə, hesab edirəm ki, katedralar formal olmamalıdır. Əgər məktəbdə peşə dialoqu baş tutmursa, etiraf edək ki, 6 saatlıq təlim modul buna həqiqətən kömək edə bilməyəcək. Məktəb daha çox müstəqil, özünə əmin, peşəkar adamlardan ibarət olan, müəllimlərin şagirdlərin qayğısına qaldığı bir institut olmalıdır.

# İYUN AYINDAN MÜƏLLİMLƏRİN BİR QİSMİNİN ƏMƏK HAQQI AZALDILACAQ

2020-2021-ci tədris ili sona yaxınlaşır. Tətil başlayacaq və qarışıq təhsil sistemi, yaxud məktəb məhdudiyyətləri artıq heç kimə narahatçılıq yaratmayacaq.

Ancaq məsələ budur ki, məhz həmin hibrid təhsil zamanı müəllimlərə distant şəkildə keçdiyi 1 saat dərs üçün 7 lari əlavə pul ödənirdi və baxmayaraq ki, bu, çox az məbləğdir, bu dövrdə müəllimlərin gəliri az-çox artmış sayılırdı.

İndi isə dərs prosesi dayandırıldıqda, nə onlayn, nə də sinif otaqlarında dərs keçirilmədikdə, təbii ki, müəllimə heç kim bu əlavə pulu ödəməyəcək.

# SENTYABRDA 182 MƏKTƏBİN BİRİNCİ SİNFİ OLMAYACAQ, 130 MƏKTƏBİN İSƏ BİRİNCİ SİNİFDƏ YALNIZ 1 ŞAGİRDİ OLACAQ



2020-2021-ci tədris ili üçün birinci siniflərin qeydiyyatı 5 iyun tarixində başa çatacaq. Mayın 27-nə olan məlumata görə, Gürcüstan miqyasında 44 513 şagird birinci sinif üçün qeydiyyatdan keçib.

Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin "etaloni.ge"yə bildirdiyinə əsasən, 182 ictimai məktəb 2020-2021-ci tədris ilinə birinci sinfi olmadan başlayacaq, 130 məktəbin isə bir nəfər birinci sinif şagirdi olacaq.

Qeyd edək ki, şagirdin birinci sinfə qeydiyyatdan keçməsindən sonra validyen/qəyyum 8 iyun tarixindən 22 iyun tarixinə qədər məktəbə sənədləri təqdim edə bilər.

**Şagirdin birinci sinfə qəbul olunması üçün təqdim olunacaq vacib sənədlər:**

- *Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi ilə bağlı məlumat qeyd olunmalıdır;*
- *Qanuni nümayəndənin şəxsiyyət vəsiqəsinin və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal olarsa);*
- *Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyət vəsiqəsinin surəti və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal olarsa);*

**Ölkədə koronavirusun yayılmasının qarşısının alınması məqsədi ilə:**

Valideynlər sənədlərlə yanaşı ərizəni də elektron şəkildə göndərə bilərlər. Yaxud məktəbin tətbiq etdiyi qaydaya uyğun olaraq təhlükəsizlik normalarını qorumaqla məktəb rəhbərliyinə təhvil verə bilərlər; Məktəb iki gün ərzində valideynin elektron poçta göndərdiyi ərizəni və sənədlərin qəbulunu təsdiq edəcək.

Bütün tələb olunan sənədlərin elektron qaydada təqdim olunması halında məktəb sənədləri məktəbə gətirməyi tələb etməyəcək və qanunvericiliklə müəyyən edilmiş müddət ərzində şagirdin qəbul edilməsini təsdiqləyəcək.

# ŞAGİRD DAYANDIRILMIŞ STATUSUNU NEÇƏ DƏFƏ BƏRPA EDƏ BİLƏR?

Əgər şagird 45 dərs günü ərzində məktəbə gəlmirsə, yaxud distant təhsilə qoşulmursa onun statusu dayandırılacaq. Təhsil Nazirliyinin qərarı belədir.

Ancaq bu tənzimləmənin də öz qaydaları var – məktəb prevensiya tədbirləri görməlidir. Şagird 10 və 20 dərs günündən artıq dərsdə iştirak etmirsə, sinif rəhbəri yazılı hesabat hazırlamalı və resurs mərkəzə təqdim etməlidir. Bu prosesə ümumtəhsil sisteminin sosial işçisi qoşulur və şagirdin statusunun dayandırılması barədə qərar iki iş günü ərzində şagirdin valideyninə/qanuni nümayəndəsinə bildirilməlidir. Valideyn və ya qanuni nümayəndə ərizə yazarsa şagirdin statusu bərpa olunur.

**Valideynin şagirdin statusunu bərpa etmək tələbi ilə məktəbə neçə dəfə müraciət etmək hüququ var?**

Təhsil və Elm Nazirliyindən "etaloni.ge"yə məsələ ilə bağlı bildiriblər ki, "bu baxımdan məhdudiyyət tətbiq olunmayıb". Belə ki, valideyn neçə dəfə ərizə yazarsa şagirdin statusu o qədər bərpa olunur.

# GÜRCÜSTANDA 19 DEKABR ATALAR GÜNÜ OLA BİLƏR

İstirahət günlərinin siyahısına biri də əlavə oluna bilər. 19 dekabr tarixini atalar günü elan etmək məktəb şagirdlərinin təşəbbüsüdür.

Qeyd olunan qanunvericilik təşəbbüsünü 6-cı sinif şagirdləri parlamentdə qeydiyyatdan keçiriblər. Onların ideyası belədir ki, atalara qarşı öz minnətdarlıqlarını bildirsinlər və hər il 3 mart tarixində Analar günü qeyd etdikləri kimi, 19 dekabr tarixində də atalar günü qeyd etsinlər:

*"Bildiyiniz kimi, Gürcüstanda 3 mart tarixində analar günü qeyd olunur və həmin tarix istirahət günü elan edilib. Bizim məqsədimiz odur ki, atalar günü də təyin edilsin və hər il atalara hörmət olaraq qeyd olunsun. İstəyirik ki, hər iki valideynə bu şəkildə minnətdarlığımızı bildirək".*

Tarixi isə Mixeil Cavaxişvilinin övladına yazdığı məktuba görə seçiblər. Yazıçı məktubu qızına 19 dekabr tarixində göndərib.

*"Hesab edirik ki, atalar günü 19 dekabr tarixində olmalıdır. Tanınmış gürcü yazıçısı, siyasətçi və ictimai xadim Mixeil Cavaxişvili öz qızına məktub yazır, məktubda ona həyati məsləhətlər verir. Məktubda böyük sevgi və düzgün dünya görüşü hiss olunur.*

*Ona görə də istəyirik ki, 19 dekabr tarixi atalar günü elan edilsin və istirahət günü olsun"*- qanunvericilik təklifində yazılıb.

Şagirdlərin yazdığına görə, bu gün Gürcüstanda Atalar günü (19 iyun) olaraq Amerika bayramı qeyd olunur və onlar istəyirlər ki, bu tarix gürcü kökləri ilə əlaqədar tarix olsun.

Qeyd olunan təşəbbüs parlamentin Sağlamlığın Müdafiəsi və Sosial Məsələlər Komitəsində müzakirə olunmalıdır. Məhz bundan sonra 19 dekabr tarixinin Gürcüstanda istirahət günü olub-olmayacağı məlum olacaq.

---

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

Gürcü dilindən tərcümə etdi:

***Aynurə ƏLİYEVA***

# DAXİLİ İLƏ VAR OLMAĞI BAŞARAN QALİBDİR



İnsanoğlunun həm daxili, həm də xarici mənliyi, kimliyi vardır. Xarici kimliklə var olmaq son zamanlarda yaman dəbə düşübdür. Fani dünyada aldadıcı gözəlliklər yetməmiş kimi bir də insanlar aldadıcı gözəlliklər arxasına düşüblər. İnsanın arxasına düşdüyü aldadıcı gözəllik isə xarici gözəllikdir. Xarici gözəllik də lazımdır. Bəs xarici gözəlliyə nələr aiddir? Misal üçün: geyimin səliqəli, təmiz olması və s. Ancaq günümüzdəki insanlar bunlara fikir vermək yerinə fikirlərini başqa yerlərə cəm ediblər. İnsan daxili ilə var olmağı bacarmalıdır. Daxili ilə var olmağı bacaran insan öz xarakteri ilə, xasiyyəti, bilik və bacarığı ilə var olmağı bacaran insandır ki, buna da bir az müdriklik lazımdır. İnsanoğluna bəxş edilmiş bu gözəlliklər var ikən aldadıcı fani gözəlliklərlə var olmaq sevdasındadır. Bu sevda nədəndir? Əslində bu sualın cavabı çox sadə və asandır. Sualın cavabı odur ki, daxili aləmini kəşf etməyən, daxilinin inkişafı üçün səy göstərməyən passiv insan asan yolu seçərək xarici kimliklə var olmağa çalışır. Xarici kimliyə aldanan, onun toruna düşən insanlar fikri, düşüncəsi qıt insanlardır. Bu gün keçmişi bəyənməyib lağlağı ilə baxanlar əslində keçmişin necə gözəl dövr olduğunu bilməyənlərdir. Əvvəllər insanlar anıldıqları zaman gözəl bilik-bacarıqları, xoş xasiyyətləri ilə anılırdılar, elə yad edilirdilər, çünki həyatda şəxsiyyətləri ilə izlər buraxırdılar. Şəxsiyyətlə iz buraxmaq da daxili kimliyin əsəridir. Ancaq indiki dövrdə şəxsiyyətlə iz buraxmaq nadirləşib. Belə halda da iz buraxmaq mümkün olmur.

Bir cəmiyyətdə gözəl izlər buraxmaq tərk edilməyə üz tutubsa, bu o cəmiyyətin aqibətinin xoş olmayacağına işarədir.

Cəmiyyətin var olması üçün şəxsiyyətlər gərəkməkdədir. Ancaq bu şəxsiyyətlər kəmiyyətlə ifadə olunmamalıdır, keyfiyyət baxımından da gerçək şəxsiyyətlər olmalıdır.

Xarici kimliyin istifadə edilməsi üçün dünya qollarını çərmələyib əməlli-başlı iş görməkdədir. Amma bu da bilinsin ki, qətiyyətlə xarici kimlik qalib olan deyil. Çünki daxili kimliyi yaşatmaq istəyənlər də az deyildir və qüvvələri də gözlə görülməyəcək qədər böyükdür.

**Lamiyə Hacıyeva**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Qadınlar Şurasının sədri*

# MƏN ATAMLA FƏXR EDİRƏM



Film izləməyi çox sevirəm. İzlədiyim hər filmə fərqli çalarda baxmağı sevirəm. Hər filmdən bir nəticə, bir dərs çıxarmağa çalışıram. Bəzi filmlər var ki, insan izləyən zaman özünü filmin bir parçası kimi hiss edir. Sanki o filmdə olanları sən də yaşayırsan, özünü ssenarinin bir parçası, hadisələrin iştirakçısı kimi hiss edirsən. Kədərli bir film izlədikdə, bunun sadəcə film olduğunu bilsən də, özünü saxlaya bilməyib ağlayırsan.

Ümumiyyətlə, tez-tez dostlarımdan film tövsiyəsi alıram, dostlarım da məndən. Tövsiyə edə biləcəyim film olaraq ağlıma ilk "Ölü şairlər dərnəyi" ("Dead Poets Society") filmi gəlir.

Bu filmin həyatımda "bir filmdən" daha artıq yeri var. Əminəm ki, bu filmi izləmiş hər kəs mənimlə mübahisəsiz razılaşacaq.

1950-ci illərin Velton Akademiyası ciddi, intizamlı və akademik çevrələrdə hörməti yüksək olan, ancaq dar düşüncəliyin iqtidarda olduğu bir məktəbdir. Əlbəttə ki, məktəb idarəsinin bu sistemi şagirdləri canından bezdirib, onlarda oxumaq həvəsi ilə yanaşı yaşamaq həvəsini də öldürürdü. Ancaq, necə deyərlər, hər kəsin bir qənimi var, elə məktəb idarəsinin qənimi də yeni gələn ingilis dili müəllimi Con Kitinq olur. O, tamamilə məktəbin sisteminə zidd bir müəllimdir.

Filmin əsas və baş qəhrəmanlarından biri atasının istəyinə qarşı çıxmayıb tibb oxumağa hazırlaşan, ancaq teatr aktyoru olmaq istəyən bir gəncdir. Buna görə həmişə oğlunu nəzarəti altında tutmağa çalışan, sərt qadağalar qoyan filmin sevilməyən və nifrət mənbəyinə çevriləni isə "ata"dır. O, oğlunun teatrda iştirak etməyinə qadağa qoyur. Oğlunun düşüncəsi, istəyi, məqsədi, ümdiləri heç ona maraqlı belə gəlmir. Atalığın verdiyi "ərklə" oğluna öz istədiyi həyatı yaşamağa məcbur edir. Sonu? İntihar. Oğlu ona istəmədiyi həyatı yaşamağı rəva görən atasının silahı ilə öz həyatına son qoyur.

Bu filmdə mənə dərindən təsir edən bir çox səhnələr var. Ən əsası isə, filmin günümüzün reallığı ilə uyğun olmasıdır. Sərt formada idarəetmə istəyi bəzən tam bir idarəsizliyə gətirib çıxarır.

Film övladlarınıza hansısa fikri əmr etmək yerinə ona doğru yolu göstərmək, onunla dost olmaq, onu başa düşmək, fikrinə hörmətlə yanaşmağın daha gözəl olduğunu çətin, bir o qədər də ağır yolla izah edir; onun səhv peşəni seçdiyini düşünürsünüzsə, əmr edib öz istədiyiniz peşəni seçməyə məcbur etmək yerinə, ona bunu izah etməyin daha yaxşı nəticə verəcəyi açıq, amma bir o qədər də ağır yolla vurğulayır.

Təəssüf ki, heç bir qüvvə dünyaya bir dəfə gəlməyimiz həqiqətini dəyişə bilməz. Övladınız belə olsa kimsə sizin istədiyiniz, məcbur etdiyiniz həyatı yaşamağa məcbur deyil, ən azından olmamalıdır. Sizin məcburiyyətinizlə özünü təsəvvür edə bilmədiyi bir sahədə tapdıqda, nəticə uğursuz olacağı zaman onun gözündə tək günahkar siz olacaqsınız.

Əminəm ki, heç bir valideyn övladının pisliyini, uğursuzluğunu istəməz. Ancaq övladınızın yox da, sizin istədiyiniz sahəni məqsəd seçməyə məcbur edərək uğursuzluğa gedən yolu açmış olursunuz. Hansı sahəni istəyirsə həmin sahə onun uğuru olmalıdır, əks təqdirdə sizin məcburiyyətinizlə seçdiyi sahədə çox uğurlu belə olsa, bütün həyatı boyu özünü əskik hiss edəcək. Getmək, bacarmaq istədiyi yol yarımçıq qalmış arzusu olacaq.

Bir ata üçün qatil olmaq çox asandır. Bəzən asana qaçmaq yerinə, siz də




mübarizənin parçasına çevrilin. Ona öz istədiyiniz həyatı yaşamağa məcbur edən nifrət mənbəyi olmaq yerinə, yaşamaq istədiyi həyatda, çıxdığı yolda, qarşısına qoyduğu məqsəddə güc alacağı, *nə olur-olsun sən bacararsan* deyən arxa-dayağı, ən pis şərtlərdə, ən ağır şəraitdə belə dağ kimi arxasında duran atasının olduğunu hiss etdirin. Əmin olun, bu, hər övladın hiss etmək istəyəcəyi əvəzolunmaz təəssüratdır. Atalıq da elə bunu tələb edən ali dəyərdir deyə düşünürəm.

***Ayhan Həsənov***
***Tbilisi Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi***

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## VƏTƏNDAŞLIQ MOTİVLƏRİ



*(əvvəli ötən sayda)*

Yeni dövr yeni tələbi və yeni camaatı əmələ gətirdi. Təhkimçiliyin ləğvindən sonra Rusiyada başlanmış hərəkat Gürcüstana da daxil oldu. Millətdə azadlıq ideyası yetişdi.

Camaatı qaraçoxeli romantikası, bu şənlik və xoş dinlənilən şeirlər daha elə də maraqlandırmırdı. Əgər əvvəllər fəhlələr və sənətkarlar özlərinin amkrosundan başqa heç kimə fikir vermirdilərsə, indi onlar narodniklərlə və Sibirdə sürgündə olan camaatla da tanış olurlar, əgər əvvəllər Tiflisin bohemik şairlərini dinləyirdilərsə, indi siyasi məğzli yazılara da can atırdılar.

Tiflis Jandarmeriyasının arxivində belə bir sənəd qorunub saxlanılır. Tiflis Jandarmeriyasının agenti öz həyatının çox hissəsini gizli polis xidmətində keçirən və eyni zamanda dəmir yolunun işçiləri deposunda çilingər işləyən kimsə İvan Akladski elə bacarıq göstərdi ki, işçilərin özləri də ona etimadla yanaşırdılar və inqilabi dairənin əsas rəhbəri də seçilmişdi. Bax, məhz elə İvan Akladski 1883-cü ildə Tiflis Jandarmeriyasının rəisinə belə bir məlumat ötürür: *"... İşçilərə gəldikdə, mən özümə borc bilirəm sizə məlumat verim ki, əksər hissəsi inkişaf ediblər və imperiyanın siyasi əhval-ruhiyyəsinə böyük diqqət yetirirlər. Siyasi proseslər barədə yazıların yerləşdirildiyi qəzet nömrələrinə birbaşa aludəlik edirlər" (Bax: "Былое", 1924-cü il, səh. 95).*

Tiflisin bu tərəfində isə, daha dəqiq, Ortacala rayonunda, şəhərin kasıb camaatı Mirzoyevin toxuculuq fabrikində işləyirdi. P.Umikaşvili bu fabrikə ilk dəfə qədəm qoyan şəhər gəncliyini belə xarakterizə edir: *"Bu bizim sayaq şəhərin oğlanları çox mərdlik, fərasətlilik göstərirlər və öz işlərində kifayət qədər ustalaşıblar" (Bax: "Droeba", 1872-ci il, №3).*

Lakin bu "ustalaşma" mane olmurdu ki, "bizim sayaq şəhərin oğlanları" tətil edəydilər və maşınların ətrafında xəbərdarlıq hasarının çəkilməsini tələb edəydilər. Bu iptidai dövrün maşınları "sayəsində" ay elə keçmirdi ki, bir neçə fəhlə xəsarət almayaydı və işləyən sənətkarlar etiraz əlaməti olaraq kantorun pəncərələrini qırmayaydılar. Çox hallarda qiyamın sakitləşdirilməsindən polis də çəkinirdi *(Mix. Çodrişvili nəql edir: "Mirzoyevin toxuculuq-əyirmə fabrikində maşın bir fəhlənin qolunu qopartdı. Bu fəhləni xarpuxlu adlandırırdılar, soyadı yadımda deyil. (Bu fəhlənin soyadı Geurk Markozov idi. Xalq teatrlarının aktyoru Vano Markozovun atası idi - İ.Q.). Bu xəsarət almış fəhlə sağalandan sonra küçənin əmanəti oldu. Fabrikin xozeyni nəinki nəsə bir şeylə ona yardım etdi, qapıdan da bir daha buraxmadı. Sonra bu fəhlə qapı-qapı gəzirdi və mərhəmət diləyirdi" (Bax: "Mənim sərgüzəştim", 1927-ci il, Saxelqami, səh. 71)*

Elə başdanca qeyd etmək lazımdır ki, bu fəhlələrin ilk başlanğıc əlifbası bazar üçün nəşr olunan qədim ədəbiyyatın müxtəlif nağıl kitablarının avazının vericilərinin də Givişvili, Skandarnova, Hazirənın olduğu şəhər xalq poeziyası idi.

Bu, bəziləri üçün mübaliğəli görünə bilər.

Sənədləri dindirək:

Qocaman sənətkar Mixa Çodrişvili öz "sərgüzəştində" yazır: *"...Halbuki, şəhərə gələnə kimi əlifbanı əzbər bilirdim, lakin sözləri birləşdirmək və ifadə etmək çətinimə gəlirdi. Bu halda dükanlarda "viveskalar"ın yazıları mənim hoyuma yetdi... Küçələrəcə vurulmuş afişalar və küçələrdəcə tapılan afişa cırıqları mənim məktəbim, universitetim və müəllimim idi ki, onların vasitəsi ilə də yazı-pozunu öyrəndim və əlyazmanı da ayırd edirdim. "Ğaramaniani" və sair kimi odövrkü ədəbiyyatı da oxuyurdum. (Bax: elə orada, səh. 69).*

İkinci canlı şahid fəhlə-tikişçi Niko İtriyevdir. Bu proletariat yazıçısı xatirələrində Eqnate Ninoşvili barədə yazır və yeri gəlmişkən söyləyir: *"Eqnateni gördüyüm məqam oldu, məncə 1893-cü ildə, gürcü fəhlələrinin oxu kitablarını, "Ğaramaniani" və başqa məzmunsuz kitabları tərtib edən zaman. Mən də bu ədəbiyyatla böyüyürdüm. Bir dəfə bazar günü Aleksandr bağının üst yanında köhnə kitablarla alver edənlər arasında almaq üçün "Ğaramaniani"nin növbəti qollarından birini gəzirdim. Məhz elə bu zaman bir ortaboyludan bir az hündür və arıq kişi qəfil rastıma çıxdı. Bu Eqnate Ninoşvili idi. Əlini çiynimə qoydu və məndən soruşdu: "İndi başlayırsan, cavan oğlan, kitablar oxumağa?" Skandarnovanın mahnılarından başlamış "Ğaramaniani"də qurtarmış oxuduğum kitabları ona sadaladım. Həmsöhbətim bir az gülümsədi, sonra məni bir kitab ticarətinə apardı və "Vəhşilik və təhsil" və "Köhnə vaxtlar insanlar necə yaşayırdılar?" kitablarını aldırdı. "Ğaramaniani"ni almaq üçün daha pulumun qalmadığına narahat idim... (Bax: "Muşa", 1923-cü il, № 141).*

Fəhlə-ozan Şakro Naftluğelinin avtobioqrafiyası üçüncü şahid olaraq bizə yarayar. *"Yazmağa necə başladım, – Naftluğeli yazır, – sıra olaraq mənim də yadıma düşmür, lakin işim xatirələrlə olduğundan, mən də xatırlayacağam"...* Sonra yazıçı yeniyetməlik dövrünün hadisəsini, mahnı yarışının keçirildiyi Müqəddəs Barbare kilsəsinin həyətini, onun üçün də şeir söylədiyi kimsə "Xeço əmi"ni xatırlayır. Bu əmi abbasılıq bağışlayıb və deyib ki, bu abbasını ona görə verirəm ki, kitab alasan, oxuyasan, öyrənəsən və daha yaxşı yazasan. *"Bu zaman, – Naftluğeli davam edir, – 11-12 yaşlarımda olardım. Sevindim ki, zəhmətim bəhrəsini verdi və bağışlanılmış abbası əlimdə o birisi gün Avlabara çıxdım, David Givişvilinin şeirlər kitabını aldım, oxumağa başladım, onu əzbərləyənə kimi gecə başımın altına qoyurdum, gündüz qoltuğumda gəzdirirdim, bəzən də onu təqlid edirdim..." (Bax: Komunisti", 1927-ci il, № 99).*

Fəhlə-şair G.Şinatexeli də mənə yazdığı məktubunda qeyd edir: *"Gürcü ədəbiyyatını mənə Haziranın şeirləri öyrətdi".*

Başqalarının arxasınca daha düşmürük. Bizim sözlərin təstiq olunması üçün bu dörd canlı nümunə də kifayətdir! Biri "Ğaramaniani" ilə öz bilik əlifbasını başladı, o birisi Skandarnovanın şeirləri ilə böyüdü, üçüncüsü David Givişvilinin şeirlərinin aludəsi idi, dördüncüsü Haziranın mahnılarını öz ədəbi karyerasının başlanğıcı olduğunu göstərir. Bir sözlə, oxucunun gördüyü kimi, bu müəlliflər aralarında da özlərinin fəaliyyət göstərməli olduğu sənətkarlar dairəsində böyük rol oynamışlar.

*

Yetişdilər, amma sual olunur, bu fəhlə-yazıçılar bu "yetişməkdən" necə istifadə etdilər? Qalanları öz yaradıcılıqlarını dərinləşdirmək üçün öz ustalarını xeyirsiz təqlid etmək üçün yoxsa başqa yol tapdılar? Faktdır ki, bu yeni nəsil kiçik vaxtlarından Givişvili-Skandarnova-Haziranın sayəsində gürcü kitabına sevgini mənimsədi. Lakin böyüyəndə və ağıl onu igidləşdirəndə, bu ozanların motivlərini rədd etdi. Mahnını, aşiqliyi, əyləncəni duyğunun şüurlu mühakiməsinə tabe etdi.

Z.Cicinadze artıq açıqca bəyan edir: *"Məgər bugünkü millətin həyatının mənzərələri kifayət qədər dəlili vermirlərmi ki, bizim üçün bu gün Q.Orbeliani, A.Cavcavadze, V.Orbeliani, Besiki, Tumanişvililər, Sayat-Nova, Skandarnova, Givişvili və başqa bu şairlər kimi şəxslər lazım deyillər?" (Z.Mtatsmindeli (Z.Cicinadze) "İoseb Davitaşvili", 1887-ci il, səh. 47).*

Gördüyümüz kimi, köhnə şairlərin inkar olunması dövrü artıq başlayırdı. Halbuki, heç kim bilmir, şeirlərini də elə həmin Z.Cicinadzenin paralel olaraq ayrıca kitab şəklində nəşr etdiyi Besiki, A.Cavcavadze, Q. və V. Orbelianilər nə günah etdi? Bəlkə ona görə ki, Skandarnova və Givişvili bu yazıçılar tərəfindən təlim görmüşdülər və yeni nəslin diqqət yetirməsi üçün köhnə yazıçıların belə yerli-dibli inkar olunması lazım idimi? Bir qulaq verin: *"Məgər Orbelianilərin , – Cicinadze davam edir, – və Cavcavadzenin yetişdirdiyi yazıçılar da bənzəmirlərmi? Deməli, Givişvili və Skandarnova kimdirlər, onlardan təlimatlanmış gürcü yazıçılarının həqiqi övladları deyilsə, bəs kimdirlər? (Elə orada, səh. 42).*

İstər elə, istər belə, müasir durumu təsvir edən ozanlar səhnəyə çıxırlar. Onlar arasında Z.Cicinadzenin özü də şeir qoşur:

**"Zaman dəyişir və onunla onun milləti,**
**Lakin bizə nə? Kasıblara heç bir şey,**
**Əgər yenə varlıların uşaqları oxuyursa,**
**Bizim tərimizlə, əzab-əziyyətimizlə böyüyənlər"**

və sair *(Bu şeir əlyazma şəklində yayılırdı. Nəğməyə də çevirdilər. Hazırda bu şeir K.Posxverəşvili tərəfindən tərtib olunmuş "İnqilabın nəğmələri" nəğmələr toplusuna salınmışdır, 1923-cü il, səh. 37. Z.Cicinadzenin şeirləri sonralar eləcə də "Gürcü yeniyetmələrinə hədiyyə" kitabında dərc edilmişdir, 1878-ci il, səh. 17, 31 və 48).*

Skandarnova? Givişvili? Bu ozanlar demək olar ki, öz vəzifələrini yerinə yetirdilər. Onların da hörmətdən düşmək dövrü gəldi. Çox qocalmışlar, yeni söz daha deyə bilmirdilər. Onların son şeirlərinə oynaqlar daha tabe olmurdu, dağılırdı, qaynar su tökülürdü. Sosial motivli müğənnilər ortaya çıxdı və şeirlər "zamanın əyləndiricisi" deyil, eləcə də kütlələrin siyasi və mədəni səviyyəsinin yüksəldilməsinə yazılırdı.

**"Millətin yarası öz yaram olsun,**
**Yandırsın məni onun işgəncəli ruhu.**
**Onun taleyi ilə və talesizliyi ilə,**
**Alışıb yansın möhkəm ürək"...**

Müasir şəhər xalq poeziyasının ilk qaranquşları və azadlığın carçıları mülkədarlara qarşı qətiyyətlə hücuma keçən və oxumaq-təhsil almaq məsələsini ilk növbədə irəli sürən dülgərlər, çilingərlər, dərzilər, çəkməçilər, nökərlər, aşbazlar və əl buyruqçuları idilər.

**"Soruşun qəzet-jurnalı,**
**Müxtəlif xəbərlərin!"...**
**"Sizin savadsızlığınıza görə,**
**Ağaların doludur kisəsi",**

**"Uşaqlarınızı yaxşı böyüdün,**
**Ana dilini öyrədin!"**

Bu didaktik tövsiyədən başqa İ.Davitaşvilinin şeirləri də vardır ki, burada da istehza utancaqlığa çalır. Bu cür şeirlər təxəllüslə dərc olunurdu və çox hallarda şəhərli "modni barışnalara" aid idi. Müəllifin rəğbətləri kəndin zəhmətkeş qadınlarına doğru yönəlmişdir. Bax, şair şəhərli ilə kəndli qadın arasında necə müqayisə aparır:

**"Sənin yaxşı qadınlığını**
**Sənin modnan işarə etdi mənə,**
**Atan tikilər üfürürdü** *(Tiki-Gil və ya öküz dərisindən hazırlanmış mayenin tökülməsi üçün qab, tuluq - M.M.)*
**Sən nə ilə oldun barişna!**

**Kəndli qızın qadasın alım,**
**O, zəhmətin övladıdır,**
**Şəhərlilər! Sizdən artıqdırlar-**
**Ayağı çatlamışlar.**

**Modna jurnallarına**
**Onun borcu yoxdur, -**
**Bax, ərgən qızdır,**
**Onun qadasın alım".**

və sair.

*(Teatr işçisi (İ.Davitaşvilinin təxəllüsü idi) "Teatr", 1886-cı il, № 22). İ. Davitaşvilinin bəzi məşhur şeiri bu təxəllüs ilə Vano Abaşidzenin "Teatr" jurnalında dərc olunurdu. Davitaşvili bu təxəllüsü gürcü teatrında pərdəni qaldırıb-salanın vəzifəsində işləyəndə götürmüşdür).*

Tiflisin sənətkar yazıçıları arasında İoseb yaradıcılığı da bədnam şəhərin "bazar poeziyasına" heç bir xidmət daxil etməyən yeganə şairdir! Əksinə, hansısa şəhərli şeirçi-naşirin üstünə də gülür:

**"Tiflisin kintosuyam,**
**Tərifə aldım kitabları,**
**Yazıram mənasız şeirlər,**
**Başı üstündə çəpişlərin şəklini çəkirəm"** *(Bax: İ.Davitaşvilinin şeirləri, Var. Xurodzenin redaksiyası, 1927-ci il, səh. 143).*

*(ardı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# OXUYUB ALİMMİ OLACAQ?!

Saat 3-ə qalırdı. Hər kəs öz yerində əyləşib sürücünün gəlməsini gözləyirdi. Özümü yorğun hiss edirdim, elə ətrafdakıların simasından da yorğunluq hissi duyulurdu. Elə bu an zoğalı rəngdə yuxa jaket geyinmiş orta yaşlı (təxmini 40-45), əli çantalı qadına gözüm sataşdı. İrəli gələrək yan oturacaqda saçları səliqə ilə toplanmış dəyirmi sifət, ağbəniz qadının yanında əyləşdi.

Qadın onu tanıyırmış kimi gülümsəyərək dedi:

– Ay Sürəyya, nətərisən, nə yaxşı belə?

– Yaxşıyam, ay Gülbəniz, sağ ol. Nə bilim, elə-belə, bazarlığa gəlmişdim. Səndə nə var, nə yox?

– Yaxşılıqdır. Qızlar necədir, Cəfər, Anya xala? Qızlar böyümüş olarlar, neçənci sinifdə oxuyurlar?

– Canın sağ olsun, yaxşıdılar. Xəbər sənə gəlib çatmayıbmı? Ayseli verdik, 1 aydı toyu olub. Aysel 10-cu sinifdə oxuyurdu, Nərgiz də 7-ci sinifdə oxuyur.

Gülbəniz həyəcanla:

– Mən Gürcüstanda deyildim, yox, xəbərim olmayıb. Nə danışırsan, ay bacı, uşaq deyilmi hələ, bəlkə könlündən oxumaq keçirdi?

Sürəyya etinasız şəkildə:

– Ay qız, nə oxumaq, oxuyub alimmi olacaq?! Yaxşı ailədir, təmirli ev, varlı, pullu... bundan yaxşısınamı gedəcəkdi. Mən özüm də oxumamışam.

Gülbəniz xəyal qırıqlığına uğramış üz ifadəsi ilə:

– Allah xoşbəxt eləsin, amma bil ki, qızın ən böyük sərvəti təhsildir. Mənim qızım da artıq 1-ci kursda oxuyur, tibb universitetində. Anası ölmüşün uşaqlıqdan arzusu idi həkim olmaq.

Sürəyya:

– Hə ay bacı, yadımdadır, sən özün də yaxşı oxuyurdun məktəbdə.

Gülbəniz:

– Hə, sənin də aran yox idi oxumaqla.

Mən o qadınları tanımırdım, onlar da məni. Mən təsadüfi olaraq onların söhbətinə qonaq olmuşdum. Ancaq onların söhbəti tanış mövzu idi. Hər iki qadını müqayisə edir, gözümdə onların həyat portretini canlandırmağa çalışırdım. Etiraf edim ki, Sürəyya xanımın "oxuyub alimmi olacaq?!" cümləsi məni ümidsizliyə qapdırmışdı. Bu nə cür düşüncə idi? Bu cür düşüncə ilə hara gedirik belə? Sürəyya xanımın timsalında bu cür fikirləşən qadınlar və onların övladlarının da uyğun olaraq elə beləcə taleləri olacaqdı.

Birdən avtobus tərpəndi və biz kəndə doğru yola düşdük. Cavabını axtardığım suallar isə hələ də mənə dinclik vermirdi.



*Dilarə Təhməzova*
*İlia Dövlət Universitetinin tələbəsi*

# BİLGİ İŞIQDIR



Hələ çox keçmişdə od-ocaq bərəkət simvolu hesab edilib. Uzun illər boyu insanlar zənginliyi, bolluğu, bərəkəti özlərinə çəkmək üçün evlərində davamlı olaraq ocaq yandırıb və sönməyə qoymazlarmış. Sönsə evdəki ruzi azalar deyə düşünüblər. Elə günümüzdə istifadə edilən "ocağı(m) söndü" deyimi də buradan gəlir.

Ocaq həqiqətən də bərəkətdir. Amma necə?

Od-ocaq təmsilçisi Günəşdir. Bildiyiniz kimi, Günəşdən yayılan enerji Yerdəki həyatın var olmasına və iqlimə əsaslı təsir göstərir. Günəşin istiliyi olmadan, dünya üzərində əkinlər, meyvə və tərəvəzin yetişməsi mümkündürmü? Günəş işığı və istiliyi olmadan bir şey yetişə bilərmi? Hətta qida mütəxəssislərinin belə bir deyimi də var: torpaq üstə yetişən məhsullar tərkibinin zənginliyinə görə, torpaq altında yetişənlərdən bir pillə üstündür, çünki Günəş işığı görür. Bundan əlavə, od insanı sərt soyuqdan qoruyur, yeməklərin ləzzətli olmasını təmin edir və s.

Həə, bir də ruhun oda məruz qalması, "pişməsi" məsələsi vardır. Bəzi insanların doğulandan Günəşi güclü olur. Bu səbəbdəndir ki, ruhən özünü inkişaf etdirən, müdrik insanlara "pişmiş" deyirlər.

Bilgi işıqdır deyilir, çünki biliyin və bütün elmin qaynağı Günəşdir. O Şərqdən "doğulub", Qərbdə "batır". Bunun mənası da odur ki, Şərq cəmiyyətləri bilgi zənginliyi içindəykən, Qərb cəmiyyətləri "gerçək" bilik mövzusunda arxadan gəlməkdədir. Günəş Qərbə doğru hərəkət edərkən işığını azaldır. Ondandır Qərbdə ruhu pişənlərin az və dayaz olması. Günəşdir səbəb bütün elmlərin Şərqdən gəlməsinə və gerçək elmlərin məhz Şərqdə tapılmasına. Elmin beşiyinin əzəldən Qərb olduğunu iddia edirlər, amma Qərb elmi kəşfləri Şərqdən öyrənib. Bu gün isə elmi Şərqə yad sayırlar. Ancaq tarix göstərir ki, gerçəkliklər fərqlidir. Elə elmin də, mədəniyyətin də beşiyi Şərqdir.

"Beşikdən qəbrə qədər elm öyrən", "Elm Çində olsa belə onun dalınca get" deyib Peyğəmbərimiz (s.a.s.). İslamın elmə olan təsirlərinin nə qədər böyük olduğunu hamı bilir.

Avropalıların bu gün işlətdikləri riyazi terminlərin çoxu ərəb mənşəlidir. "Alqebra" ərəbcə əl-cəbr deməkdir və cəbr elminin təməlini məşhur Xarəzmli alim Əl-Xarəzmi qoyub. Filosof, astronom, riyaziyyatçı, tarixçi, ilahiyyatçı alim Nəsirəddin Tusi, Ömər Xəyyam, Qiyasəddin Cəmşid və orta əsrlər dövrünün ən böyük təbiblərindən biri olan, "Tibb" dedikdə ağla ilk gələn İbn Sina və hətta "kimyanın atası" sayılan Cabir ibn Həyyan (Orta əsrlər Avropasında Geber adı ilə tanınıb) və bunlar kimi başqa bir çox dahi şəxsiyyətlər İngiltərədən, Almaniyadan, Amerikadan çıxmadılar, hamısının kökü Şərqdədir. Yəni kim ki deyir "mədəniyyət qərbdədir", yanlış söyləyir. Bilgi haradadırsa mədəniyyət də oradadır və Günəş də oranın üstünə doğulur.

Şərq xalqlarının dini-fəlsəfi və poetik düşüncə tərzinin inkişafına böyük təkan vermiş Mövlana Cəlaləddin Ruminin mürşidi (təsəvvüf yolunda rəhbəri) hesab edilən, dünyaca məşhur alim və şair olan ustad Şəms Təbrizini də unutmaq olmaz.

"Sözlər həqiqət deyildir, ağızdan çıxan səslərdir, həqiqəti öyrənmək üçün sözə deyil, yaşamağa ehtiyac vardır", deyib Təbrizin Günəşi (Şəms Təbrizi).

Kimya elminin ən təməl qaydası, "heç bir maddə yoxdan var edilməz, vardan da yox edilməz"... "Yoxdan var etmək" hər hansı bir insanoğlunun edə biləcəyi iş deyildir, bu ancaq Yaradanın edə biləcəyi bir şeydir.

Uca Allah biz insanların təsəvvür etdiyindən daha çox böyükdür. Kainatda yoxdan var etdiyi hər bir şeyi o qədər mükəmməl, o qədər detallı yaradıb ki, qüsur tapa bilmək qeyri-mümkündür. Qurani-Kərimdə Ay (əl-Qəmər) və Günəş (əş-Şəms) surələri və həmçinin digər bir neçə surədə göy cisimləri barədə olan ayələri oxuduqca, həqiqətən də Göydə nə varsa Yerdə də onun təsirində olduğumuza bir daha əmin oluram.

P.S.

Son 4 ildir başlatdığım, lakin müəyyən səbəblərdən dolayı axsatdığım şəxsi inkişaf çalışmalarıma məlum vəziyyət (pandemiya, karantin) daha yaxşı şərait yaratmış oldu. Necə deyərlər, krizisi fürsətə çevirməyə imkan verdi və beləliklə canlı görüş seminarları onlayn vebinarlarla əvəz edərək təlimlərə daha çox vaxt ayıra bildim.

Fiziki və ruhi olaraq özünü inkişaf etdirmək istəyən hər kəsə tövsiyəm, bacardığınız qədər zamanınızı səmərəli keçirin. Davamlı olaraq mütaliə edin. Fərqi yoxdur, bu, dərslik kitabları da ola bilər, bədii əsər və ya qəzet, jurnal da. Yetər ki, gün ərzində mütləq sadəcə bir səhifə belə olsa oxuyun. Bu, şəxsi inkişafa gedən yolun ən birinci və ən sadə üsuludur.

Burada bəhs etdiyim bu kiçik bilgiləri sizinlə paylaşmaq gəldi içimdən və ümid edirəm ki, oxuyan hər kəsin həyat yoluna işıq tutacaq, fərqindəliyini daha da artıracaq. Hər birinizə yüksək fərqindəlik arzu edirəm və oxuyan hər kəsə təşəkkür edirəm.

*Aysel Mahmudqızı*

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “იენი იოლი” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 MAY 2021-Cİ İL №010 (133)

# ATTESTATLAR 20 İYUN TARİXİNDƏN VERİLƏCƏK




2020-2021-ci tədris ilinin məzunları ümumi orta təhsil haqqında attestatlarını almaq üçün 20 iyun tarixindən Ədliyyə Evinin filiallarına və ya Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin istənilən ərazi xidmətlərinə ərizə ilə müraciət edə bilərlər.

**Attestat almaq üçün aşağıdakı sənədlər lazımdır:**

*• Şəxsiyyəti təsdiq edən sənəd;*

*• Doğum şəhadətnaməsi (əgər attestat almaq üçün həddi-büluğa çatmamış şəxsin qanuni nümayəndəsi müraciət edərsə);*

*• Müvafiq qaydada təsdiqlənmiş etibarnamə (əgər attestat almaq üçün həddi-büluğa çatmamış şəxsin qanuni nümayəndəsi müraciət edərsə);*

*• Sənəd tezləşdirilmiş qaydada alınarsa, bu xidmətə görə ödəməni təsdiq edən qəbz.*

***Attestatın 10 iş günü ərzində verilməsi pulsuzdur.***

**Tezləşdirilmiş qaydada xidmətin müddəti və qiyməti aşağıdakı kimidir:**

Sənədin 5 iş günündə tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 35 lari;

Sənədin 3 iş günündə tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 50 lari;

Sənədin 2 iş günündə tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 65 lari;

Sənədin ərizəni təqdim edən günü tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 70 lari.

**Attestatın cari tədris ilinin 20 iyun tarixindən sonra tezləşdirilmiş qaydada verilməsi xidmətinin müddəti və qiyməti:**

Sənədin 5 iş günündə tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 20 lari;

Sənədin 3 iş günündə tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 30 lari;

Sənədin 2 iş günündə tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 40 lari;

Sənədin ərizəni təqdim edən günü tezləşdirilmiş qaydada hazırlanması üçün xidmətin qiyməti – 50 lari.

*Mənbə: etaloni.ge*

# GÜRCÜSTANDA ƏHALİ ƏN AZ PUL TƏHSİLƏ XƏRCLƏYİR



Statistika İdarəsi 2020-ci ilin xərcləri ilə bağlı məlumatlar yayımlayıb.

25 may tarixində yayımlanmış paylaşımda oxuyuruq ki, 2020-ci ildə təhsil Gürcüstan əhalisinin maddi xərclərinin 2 faizini təşkil edirmiş. Bu isə qalan bütün xərclərdən aşağı göstəricidir.

Xərclər kateqoriyalara görə belə bölünüb: ərzaq, içki, tütün məmulatları – 42,1 %; Yaşayış evi, su, elektrik enerjisi, təbii qaz və başqa qızdırıcılar – 13,7 %; Sağlamlığın qorunması – 12 %; Nəqliyyat – 9,8 %; Geyim və ayaqqabı – 3,7 %; Ev əşyaları – 3,5 %; Təhsil – 2 %; Digər xərclər – 13,2 %.

Statistika İdarəsinin araşdırmasının nəticələrinə əsasən, orta aylıq xərclərin həcmi bir təsərrüfat üçün 9,4 faiz azalıb və 1 038.5 lari təşkil edib. Bir nəfər üçün isə 7,4 faiz azalıb və 303,3 lariyə bərabərdir.

*Mənbə: edu.aris.ge*

# NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİ GÜRCÜ DİLİNDƏ NƏŞR EDİLİB



Tbilisidə Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Mərkəzində böyük şair və mütəfəkkir Nizami Gəncəvinin gürcü dilinə tərcümə edilmiş əsərlərindən ibarət kitabların təqdimatı olub.

Kitablarda “Xəmsə”yə daxil olan “Leyli və Məcnun”, “Xosrov və Şirin” və “Yeddi gözəl” əsərləri yer alıb.

Mərasim Azərbaycanın Gürcüstandakı səfirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin (DİDK) birgə təşkilatçılığı ilə keçirilib.

Tədbirdə çıxış edən Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2021-ci ilin “Nizami Gəncəvi İli” elan olunduğunu xatırladıb.

O, bildirib ki, bu il çərçivəsində DİDK müxtəlif ölkələrdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsinin həyat və yaradıcılığına həsr olunan tədbirlər keçirir.

Təqdimat mərasimi gürcü və azərbaycanlı ziyalıların çıxışları ilə davam etdirilib. Onlar kitabların işıq üzü görməsini yüksək qiymətləndiriblər, Nizami Gəncəvi yaradıcılığının gürcü ədəbiyyatına təsiri, Azərbaycan və Gürcüstan arasındakı dostluq və mədəni əlaqələrdən söz açıblar.

# GÜRCÜSTANDA İŞSİZLİK ARTIB




Milli Statistika İdarəsinin məlumatına əsasən, bu ilin I rübündə Gürcüstanda işsizlik səviyyəsi illik müqayisədə 3,7 faiz bəndi artaraq 21,9 % təşkil edib.

Hesabat dövründə şəhərlərdə işsizlik göstəricisi 5,7 faiz bəndi artaraq 23,6 %, kənd yerlərində isə 0,4 faiz bəndi artaraq 19,3 %-ə bərabər olub.

Kişilər arasında bu göstərici 24,1 % (+3,3 %), qadınlar arasında isə 19,2 % (+4 %) olub.

# APREL AYINDA TURİZMDƏN GƏLİR ARTIB



Gürcüstanın Milli Bankının analitik hesabatına əsasən, bu ilin aprel ayında Gürcüstan turizmdən 49,9 milyon ABŞ dolları gəlir əldə edib.

Sənədə görə, bu, ötən ilin eyni göstəricisindən 5,8 dəfə çoxdur.

Ötən ay Gürcüstana səfər edən ziyarətçilərin sayı illik müqayisədə 2,8 dəfə artaraq 88,9 min nəfərə bərabər olub. Ziyarətçilərin 75,8 minini turistlər təşkil edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.